# AZƏRBAYCANLA QIRĞIZISTAN ARASINDA ƏLAQƏLƏR

**E.B.HACALIYEV**
*AMEA Fəlsəfə, Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu*

Azərbaycan Respublikasının Qırğızıstanla 90-cı illərin əvvəllərində ictimai-siyasi əlaqələri zəif olmuşdur. Amma böyük dostluq ənənələri üzərində münasibətlər qurmuş Azərbaycan və qırğız xalqları öz müstəqilliklərini qurub inkişaf etdirdikcə bu ənənələrin yenidən canlandırılmasını xüsusi diqqət mərkəzində saxlamışlar. Təsadüfi deyil ki, xalqımızın ümummilli lideri ikinci dəfə Azərbaycana rəhbərlik etməyə başladıqdan sonra gənc türk respublikaları, o cümlədən Qırğızıstanla münasibətləri bərpa etməyə çalışmışdır. Belə ki, müxtəlif görüşlərdə onun Qırğızıstan Respublikasının prezidenti Əsgər Akayev ilə apardığı söhbətlər, müxtəlif problemlərə qarşılıqlı münasibətləri bu ənənəni daha da möhkəmlətmiş, gənc suveren türk respublikalarının inkişafında böyük əhəmiyyət kəsb etmişdir. Məsələn, 1993-cü ilin axırlarında Azərbaycan və Qırğızıstan dövlət başçılarının Türkmənistanın paytaxtında görüşləri buna aydın misal ola bilər. Söhbət zamanı qarşılıqlı surətdə ikitərəfli əlaqələrin inkişaf perspektivlərinə toxunulmuş, belə bir həmrəy qənaətə gəlmişlər ki, bu ikitərəfli münasibətləri möhkəmləndirmək üçün mədəniyyətin gücündən istifadə etmək lazımdır. Hər iki respublikada mədəniyyətin, dilin yaxınlığı və din ümumiliyi bu münasibətlərin möhkəmləndirilməsində bünövrə rolunu oynaya bilər. Onların fikrincə, məhz bu mənəvi amillərə əsaslanaraq iki dövlət arasında münasibətləri daha da inkişaf etdirmək və dərinləşdirmək mümkündür. Həmin dövrdə iki dövlət rəhbərinin söhbəti zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması məsələsinə də toxunulmuşdur. Onlar belə bir yekdil fikirdə olmuşlar ki, dövlətlərin sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyü prinsipləri rəhbər tutulmalıdır. Bu, ölkələrin MDB çərçivəsində yanaşı yaşamasının labüd şərtidir və birliyin nizamnaməsinə uyğundur. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev həmin söhbət zamanı xalqımızın, dövlətimizin qəti fikrini belə ifadə etmişdir: "Azərbaycan, onun torpaqlarının bir hissəsinin başqa dövlət tərəfindən silah gücünə işğal edilməsi ilə heç vaxt razılaşmayacaqdır" (1).

Heydər Əliyev söhbət zamanı Azərbaycanda hərbi əməliyyatların davam etdiyinə görə ölkədə yaranmış mürəkkəb ictimai-

siyasi vəziyyət haqqında Qırğızıstan Respublikasının prezidentinə məlumat vermiş, bir milyondan çox azərbaycanlı qaçqının düşdüyü çətin vəziyyətdən danışmışdır.

Yeni yaranmış suveren dövlətlər öz iqtisadi və siyasi inkişaflarını təmin etmək məqsədilə bir-biriləri ilə sıx əlaqə saxlayır, beynəlxalq məclislərdə bir-birilərini müdafiə edir, xüsusilə müxtəlif xarakterli yeni ittifaqlar yaradaraq inkişaf məsələlərinə üstünlük verirdilər. L.İmanaliyeva "Müstəqillik illərində Qırğızıstanda demokratik islahatlar və onun xarici siyasətinin əsas yekunları" adlı tədqiqatında gənc respublikanın keçdiyi həyat yoluna düzgün qiymət verərək yazmışdır: "Qısa vaxt zamanı ərzində respublikada demokratik cəmiyyətin və açıq tipli bazar iqtisadiyyatının əsaslarını yaratmaq mümkün olmuşdur" (2, s.88).

Qırğızıstan Respublikasının iştirakı ilə 15 may 1992-ci ildən Rusiya, Tacikistan, Özbəkistan, Qırğızıstan və Ermənistan dövlətləri kollektiv təhlükəsizlik haqqında müqavilə imzalamışlar. 1993-cü ildə Azərbaycan, Gürcüstan və Belorusiya da həmçinin bu müqaviləyə qoşulmuşdur. 1995-ci ilin noyabrında bu müqavilə BMT-nin katibliyində qeydiyyatdan keçmişdir (3, s.92.). Bu müqaviləyə əsasən beynəlxalq terrorçular hər hansı bir ölkənin ərazisindən müqaviləni imzalamış ölkələrin ərazisinə keçməyə imkan verməməlidir.

Qırğızıstan Respublikası da həmçinin Azərbaycan kimi bir sıra beynəlxalq təşkilatların üzvüdür. Məsələn, bu dövlətlər İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü kimi iqtisadi və elmi-texniki inkişafın və əməkdaşlığın inkişafına yardım göstərməyi qarşılarına məqsəd qoymuşlar. Bu təşkilatın fəaliyyəti prosesində hər iki dövlətin rəhbər işçilərinin iştirakı onların münasibət yaratmalarına, bəzi məsələlərin həllində yekdil bir fikrə gəlməyə kömək göstərir.

Qırğızıstan Respublikasında 1994-cü ilin birinci rübündə baş verən zəlzələ ilə bağlı Azərbaycan dövlət başçısının Əsgər Akayevə göndərdiyi başsağlığı teleqramında bu iki dövlətin, xalqın bir-birinə münasibəti aydın nəzərə çarpır. Həmin teleqramda Azərbaycan prezidenti Heydər Əliyev yazmışdır: "Çox hörmətli cənab prezident. Qardaş qırğız xalqına təbii fəlakət üz verdiyi haqqında xəbər məni və bütün Azərbaycan xalqını dərindən sarsıtmışdır. İtkilərin Sizdə doğurduğu ağrı-acıya şərik çıxır, böyük insan tələfatı ilə çoxsaylı dağıntılarla və tüğyan edən kortəbii qüvvənin respublikaya vurduğu külli miqdarda ziyanla əlaqədar olaraq kədərlənirik. Həlak olanların ailələrinə və yaxın adamlarına, bütün qırğız xalqına səmim-qəlbdən başsağlığı verirəm".

Çətin anda qardaş, dost sözü insana dayaq olur, kədəri aradan qaldırır. Azərbaycan dövlət başçısının teleqramda dediyi bu sözlər doğma qırğız xalqına böyük təskinlik vermişdir.

Qırğızıstan dövləti Azərbaycanda baş verən ictimai-siyasi prosesi diqqətlə izləyir, sevincimizə fərəhlənir, kədərimizə şərik olur. Çox vaxt müəyyən məsələlərə öz münasibətini bildirir, ayrı-ayrı hadisələrin tənzimlənməsində öz xeyirxah addımını əsirgəmir.

Bu dövlətin başçısı Əsgər Aкayev dəfələrlə Dağlıq Qarabağ münaqişəsi, Azərbaycanın ərazi bütövlüyü məsələsi ilə bağlı fiкirlərini bildirib, Ermənistanın Azərbaycana qarşı təcavüzкarlıq siyasətini pisləyib.

1994-cü il mayın əvvəllərində Qırğızıstanın paytaxtı Bişкeкdə MDB dövlətləri Parlamentlərarası Assambleyasının кeçirdiyi iclasda Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələ müzaкirə olunub. Bu müzaкirədə Qırğızıstan Respubliкasının prezidenti Əsgər Aкayev bildirmişdir кi, Qarabağın dərdi bizim hamımızın dərdidir. Problemi həll etməк üçün bütün imкanlardan istifadə etməliyiк. Bugünкü görüşdə də hər hansı sülh danışıqlarına nail olsaq, bu böyüк qələbə olar (4). Həmin görüşdə Respubliкa Ali Soveti sədrinin müavini Afiyəddin Cəlilov Heydər Əliyevin Bişкeк görüşü iştiraкçılarına məкtubunu oxumuşdur. Məкtubda Azərbaycan prezidenti Bişкeк görüşündə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində mühüm addım atılacağına ümid bəslədini bildirirdi. Daha sonra isə MDB iştiraкçısı olan dövlətə qarşı təcavüzə yol verilməzliyi haqqında Azərbaycan parlamenti nümayəndə heyətinin bəyannaməsi oxunmuşdu. Bəyannamədə deyilirdi кi, MDB-nin iştiraкçısı olan dövlətə qarşı silahlı təcavüzün aparılması yolverilməzdir. Odur кi, Parlamentlərarası Assambleya Azərbaycan Respubliкasının sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyünə qarşı yönəldilmiş Ermənistanın təcavüzкar hərəкətinin pislənilməsi, dövlətlərarası normaların pozulmasına qarşı lazımi tədbirlərin görülməsi üçün siyasi şərait yaratmalıdır. Görüşdə Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının nümayəndələri və başqa ölкələrin səlahiyyətli şəxsləri iştiraк etmişdir.

Bişкeк görüşündə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycan Ali Soveti sədrinin müavini A.Cəlilov Qırğızıstanda jurnalistlərin suallarına cavab vermişdir. Azərbaycan nümayəndə heyətinin başçısı кimi, o mövcud problem ilə bağlı Azərbaycan dövlətinin mövqeyini açıqlamışdır: "Görüşdə hər hansı bir sənədin imzalanacağını deməк çətindir. Disкussiyalar, ən əvvəl, Ermənistan silahlı birləşmələrinin Azərbaycan ərazisindən çıxarılması barədə, qaçqınların öz ev-eşiкlərinə qaytarılması barədə, atəşin qəti şəкildə dayandırılması barədə gedir. Biz bunu əsas tuturuq кi, münaqişə genişlənərəк müharibəyə çevrilmiş və bunu sülh yolu ilə Ermənistan və Azərbaycan aradan qaldırmalıdır (5).

Bişкeк görüşündə Dağlıq Qarabağ ilə bağlı qaldırılmış məsələ həmin ilin iyun ayında Sanкt-Peterburqda MDB-nin Parlamentlərarası Assambleyası Şurasının кeçirdiyi növbəti iclasında yenidən gündəliкdə əsas yer tutmuşdur. Bu barədə Qırğızıstan Ali Sovetinin sədri M.Şerimкulovun məlumatı dinlənilmişdir. Bişкeк protoкolunun mühüm sənəd olduğu bir daha vurğulanmış və qeyd edilmişdir кi, hələliк xeyli müddətdə topların susması bu sənədin nailiyyətidir (6).

Qırğızıstan Respubliкası türк dövlətləri başçılarının zirvə toplantılarında müntəzəm iştiraк edir. Qısa müddət ərzində türк

dövlətləri arasında müxtəlif sahələrdə sıx ikitərəfli və çoxtərəfli əlaqələrin yaradılması və yeni tarixi şəraitdə inkişaf etdirilməsi bu dövlətlərin inkişaf tarixində böyük nailiyyət kimi qiymətləndirilməlidir. Bu toplantılar zamanı türk dövlətləri bir-birini daha yaxşı tanıyır, əlaqələri artır, əməkdaşlığın yeni sahələri aşkara çıxır, birgə sənəd imzalanır. Demək olar bütün zirvə toplantıları zamanı bəyannamələr imzalanır ki, burada türk dövlətlərinin aralarında sosial-iqtisadi, sosial-mənəvi əlaqələrin, əməkdaşlığın müxtəlif tərəfləri öz əksini tapır.

Türk dövlət başçılarının zirvə toplantısının əsası 1992-ci ilin oktyabrında Ankara şəhərində qoyulmuşdur. Yeni, suveren respublika quran türk dövlətlərinin başçıları toplantılarda bu görüşün türk dövlətlərinin həyatında çox mühüm hadisə olduğunu qeyd etmişlər. Nəzərə almaq lazımdır ki, həmin dövrdə Azərbaycan Respublikası təcavüzkar Ermənistanla müharibə aparır, öz ərazilərinin müdafiəsi ilə məşğul idi. Türk dövlətlərinin Ankara görüşündə Azərbaycanın bu vəziyyətinə münasibət bildirilmiş türk dövlət başçıları hər hansı məsələnin həllində milli birlik göstərməyi irəli sürmüşlər. Qırğızıstan dövləti də bu məsələnin obyektiv həll olunmasında öz sözünü demişdir.

Türk dövlət başçılarının 1994-cü ilin oktyabrında İstanbul şəhərində keçirilən sammitində imzalanan mühüm Bəyannamədə də həmçinin altı türk dövlətinin saxladığı iqtisadi əməkdaşlığı, mədəni əlaqələri yüksək qiymətləndirilmişdir. Türk dövlət başçılarının birinci sammitindən keçən iki il ərzində bu istiqamətdə müəyyən iş görülmüş, ən başlıcası isə bu dövlətlər arasında iqtisadi əməkdaşlığın, mədəni əlaqələrin saxlanması zəruriliyinin əsası qoyulmuşdur. İstanbul sammiti Bəyannaməsini imzalayan türk dövlət başçıları etiraf etmişlər ki, son iki il ərzində bu əlaqələr tam, istənilən səviyyədə olmasa da bu müddətdə türk dövlətləri, türk xalqı bir-birinə yaxınlaşmışlar, müəyyən məsələlərin həllində ümumi dil tapmışlar. Bir neçə gün davam edən İstanbul sammitində zirvə toplantısı iştirakçıları bölmələr üzrə öz işini davam etdirmişlər. Bu bölmələrdə dövlətlərarası saxlanan və böyük ruh yüksəkliyi ilə davam etdirilən əməkdaşlıq məsələləri ətraflı nəzərdən keçirilmiş, tərəflər fikir mübadiləsi nəticəsində öz əlaqələri ilə bağlı dəqiqləşdirmələr aparmış, bəyannamənin hazırlanmasına öz töhfələrini vermişlər. Bölmələrdə bundan sonra da türk dövlətləri arasında əməkdaşlığı, əlaqələri inkişaf etdirmək üçün bütün səylərin davam etdirilməsi diqqət mərkəzinə çıxarılmışdır. Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəl zirvə toplantısına yekun vuraraq türk dövlətləri arasında böyük uğurla davam etdirilən bu zirvə toplantısının çox böyük əhəmiyyət kəsb etdiyini bildirmişdir. O, türk dövlətləri arasında münasibətlərin inkişafına böyük əngəl törədən problemlərə, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin bölgədə yaratdığı çətinliklərə də toxunmuşdur. Süleyman Dəmirəl türk dövlət başçılarının üçüncü zirvə toplantısının Qırğızıstanın Bişkek şəhərində keçiri-

ləcəyini bildirmişdir. İstanbul sammitinin bəyannaməsini Türkiyə prezidenti Süleyman Dəmirəl, Azərbaycan prezidenti Heydər Əliyev, Qazaxıstan prezidenti Nursultan Nazarbayev, Özbəkistan prezidenti İslam Kərimov, Qırğızıstan prezidenti Əsgər Akayev, Türkmənistan prezidenti Saparmurad Niyazov imzalamışlar (7).

İstanbul sammitində türk dövlət başçıları çıxış etmişlər. İlk söz Heydər Əliyevə verilmişdir. O, bu sammitin keçirilməsinə böyük əhəmiyyət vermiş, türk dövlətlərinin saxladıqları əlaqələri yüksək qiymətləndirmişdir (8).

İstanbul sammitində Qırğızıstan prezidenti Əsgər Akayevin çıxışında da həmçinin türk dövlətlərinin zirvə toplantısı və bu dövlətləri təmsil edən xalqlar arasında əməkdaşlığın davam etdirilməsi öz yüksək qiymətini almışdır. Əsgər Akayev hər bir türk dövlətinin fəaliyyəti ilə bağlı öz münasibətini bildirmiş, eyni zamanda Azərbaycanla saxlanan ikitərəfli əlaqələrin inkişafına da müəyyən yer ayırmışdır.

İstanbul sammitində qəbul edilən Bəyannamədə öz əksini tapmış maddələrdə hər bir türk dövlətinin geniş fəaliyyət dairəsi öz əksini tapmış, müasir dünyanın siyasi mənzərəsinə münasibət bildirilmiş, türk dövlətlərinin dünya hadisələrindən təcrid olunmadığı, dünyada baş verən siyasi proseslərin gedişatına öz münasibətlərini bildirmələri bir daha qeyd olunmuşdur. Məsələn, 4-cü bənddə göstərilir ki, “Dövlət başçıları BMT və ATƏM prinsiplərinin açıq şəkildə pozulması nəticəsində onların regionlarında yaranmış münaqişələrlə əlaqədar dərindən narahat olduqlarını bildirmiş və bütün tərəfləri yuxarıda göstərilən prinsiplərə riayət etməyə çağırmışlar. Dövlət başçıları Ermənistan ilə Azərbaycan arasında münaqişənin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında sülh yolu ilə aradan qaldırılmasının zəruriliyini qeyd etmişlər. Dövlət başçıları Tacikistan və Əfqanıstanın problemlərinin dinclikłə, ədalətlə və qəti həll olunması yollarını axtarmağın zəruriliyini qeyd etmiş, Bosniya və Hersoqovina, Kipr məsələləri barədə fikir mübadiləsi aparmışlar” (9).

Türk dövlət başçılarının üçüncü zirvə toplantısının Qırğızıstanda keçirilməsi Azərbaycan-Qırğızıstan münasibətlərinin öyrənilməsi baxımından mühüm əhəmiyyət daşıyır. 1995-ci ilin avqustunda keçirilən Bişkek sammitində Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev iştirak və çıxış etmişdir. Bişkek sammitinin əhəmiyyəti ondadır ki, türk dövlət başçıları qırğız xalqının ölməz dastanı olan “Manas”ın 1000 illik yubileyində iştirak edərək bu dastanla bağlı fikirlərini söyləmişlər.

Azərbaycan prezidenti Heydər Əliyev sammitdə çıxış edərək bu zirvə görüşlərinin gözəl bir ənənəyə çevrildiyini qeyd etmiş, çoxəsrlik tarix boyu dünya sivilizasiyası xəzinəsinə sanballı töhfələr vermiş, coğrafi yaxınlığı ilə, tarixi tale, mədəniyyət, adət-ənənə, dil və din birliyi kimi sarsılmaz tellər ilə bir-birinə bağlı olan xalqlarımız və ölkələrimiz sıx və səmərəli əməkdaşlıq üçün geniş imkanlara malik olmasını göstərmişdir (10).

Azərbaycan prezidenti zirvə görüşünün "Manas" eposunun 1000 illiк yubileyi ilə bir vaxta düşməsini xüsusi qeyd etmişdir. O demişdir: "Mən çox şadam кi, bizim Zirvə görüşümüz "Manas" eposunun minilliк yubileyi ilə üst-üstə düşür və biz də, bu zirvə görüşünün iştiraкçıları olan dövlət başçıları, bütün qırğız xalqı ilə birliкdə türк aləmi üçün müqəddəs olan bir əsərin min illiк ildönümünü azad Qırğızıstanın paytaxtı gözəl Bişкeк şəhərində təntənəli surətdə qeyd ediriк.

"Manas" кöləliyə qarşı çıxır, xalqın azadlığını, müstəqilliyini hər şeydən uca tutur, müqəddəs hesab etdiyi ata yurdunu yadelli işğalçıların tapdağından qorumaq üçün xalqı mübarizəyə çağırır, türк xalqlarının qardaşlığını məhəbbətlə tərənnüm edir" (11, s.225).

Heydər Əliyev öz çıxışında türк dövlətləri və xalqları arasında münasibətlərin saxlanması və inкişaf etdirilməsinə böyüк əhəmiyyət vermişdir. O, bu dövlətlərin mühüm problemlərinin həll olunmasında, yardım əlini uzatmasında, parçalanmanın və təкlənmənin qarşısının alınmasında, müharibə və silahlı münaqişələrin aradan qaldırılmasında belə görüşlərin кeçirilməsinin və türк dövlət başçılarının mütəmadi olaraq fiкir mübadiləsi aparmalarının böyüк əhəmiyyət кəsb etdiyi üzərində xüsusi olaraq dayanmış, tarixi mənşəyimizin, qarşımızda duran məqsəd və problemlərin oxşarlığını, milli mənafelərimizin bir olmasını göstərmişdir. Onun fiкrincə, bütün bunlar ölкələrimiz arasında strateji əməкdaşlığın etibarlı təməlidir, gələcəк inкişafımıza niкbin baxmağa imкan verir.

Azərbaycanın dövlət başçısı türк respubliкaları arasında münasibətlərin zəif olmasını da dövlət başçılarının nəzərinə çatdırmışdır. O demişdir: "Bizim respubliкalarımız кeçmişdə Sovet İttifaqına daxil olarкən həm iqtisadi baxımdan, həm də mədəni dəyərlərlə mübadilə baxımından görüşlər кeçirilməsi, bir-birinə nümayəndə heyəti göndərilməsi baxımından daha sıx bağlı idilər. İndi bu əlaqələr zəifləmişdir. Amma biz istəyiriк кi, Azərbaycan istəyir кi, bu əlaqələr geniş olsun. Tarixi кeçmişimizi, ümumi кöкlərimizi, bizi bu görüşə toplayan zəmini əsas tutaraq Azərbaycan istəyir кi, Mərкəzi Asiyanın bütün ölкələri ilə daha sıx iqtisadi, mədəni, elmi-texniкi əməкdaşlıq yaratsın və bu inteqrasiyaya daxil olsun" (12, s.225).

## ƏDƏBİYYAT


1. «Azərbaycan» qəz., 25 deкabr 2003-cü il.
2. «Центральная Азия и Кавказ», 2001, №6, с. 88.
3. Yenə orada.
4. «Xalq qəzeti», 5 may 1994-cü il.
5. Yenə orada.
6. «Xalq qəzeti», 11 iyun 1994-cü il.
7. «Xalq qəzeti», 20 oкtyabr 1994-cü il.
8. Yenə orada.
9. Yenə orada.
10. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. IV cild. Baкı, Azərnəşr, 1997, 527 s.

11. Yenə orada.
12. Yenə orada.
13. Yenə orada.
14. Yenə orada.
15. Yenə orada.
16. Yenə orada.
17. «Azərbaycan» qəz., 24 aprel, 1997-ci il.
18. Yenə orada.
19. «Azərbaycan»! 25 aprel, 1997-ci il.
20. «Xalq qəzeti» 23 aprel, 1994-cü il.
21. Azərbaycanın statistiк göstəriciləri, Вакı: «Səda» nəşriyyatı, 2001. 580 s.

## ОТНОШЕНИЯ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И КЫРГЫЗСТАНОМ

Э.Б.ГАДЖАЛИЕВ

### РЕЗЮМЕ

Статья посвящается созданию и развитию общественно-политических отношений между Азербайджаном и Кыргызстаном в годы суверенитета. В статье всесторонне анализированы отношения, поддерживаемые между новосозданными суверенными республиками с целью обеспечения развития своей экономики и политики, особенно взаимные визиты глав государств и важные документы, подписанные вовремя этих визитов. В целом были подчеркнуты шаги, устремленные к усиливанию развитий отношений между обеими республиками во всех отраслях.

## THE RELATIONS BETWEEN AZERBAIJAN AND KIRQISTAN

E.B.HAJALIYEV

### SUMMARY

The article is devoted to creation and development of public and political relations between Azerbaijan and Kirgistan during the years of sovereignty. The relations between newlycreated sovereign republics on the purpose of providing development of its economy and policy, particularly mutual visits of the heads of states and important documents signed during these visits were completely analysed in the article.

As a whole the steps rushing upon strengthening the development of relations between both repullics in all fields were stressed in the article.